# "Gözüm o gözlərdə qaldı"nın Təbriz nəşri






"Gülməyi üstündə danlardım hərdən, indi yalvarıram, "gül", gülə bilmir" nisgilinin, qübarının nostalji yaşantılarıdı Xalq şairi Nəriman Həsənzadənin "Gözüm o gözlərdə qaldı" kitabında yer alan poetik nümunələr. Birinə ömür-gün yoldaşı, başqa birisinə göz yaşı verən eşq, məhəbbət hücrəsində zikr olunan dualar kimi oxunur; ümid, təsəlli nəbzi atır hər misradan. "Bu qədər özünü gizlətməmişdin Gizlənpaç oynayan vaxtımızda da" ərki də, "Bu dəfə bilmirəm nə olub sənə, gedibsən, qayıtmaq yadından çıxıb" qınağı da bir aradadır. Könül dostundan yadigar hər predmet, detal belə şeir mövzusuna çevrilib. "Qapının ağzında başmaq tayların, yolda ayağına bəs nə geyibsən?" - sorğusu, "Sənin bişirdiyin o mürəbbələr içilib qurtarıb, hardasan özün?" - nigarançılığı oxucu ruhunu titrətməkdədir. "Evdən köçüb ev yiyəsi, şəkli divarda qalıb", "Gəl, telini darayım, daraq səni gözləyir" ilticası dil ucundadır. Şahanə səsləniş, ötən günlərə dönüş çağırışı bir ömür boyuncadı:

*Gəl görüm, gəl görüm, gəl görüm səni,*
*Necə darıxmışam bir qılıq üçün.*
*Sonra evinizə ötürrəm səni,*
*Səni görməliyəm yaşamaq üçün.*

Yaşamaq üçün könül dostlarını bitməz nisgillə, sonsuz ümidlərlə gözləyə bilənlərin kitabıdır "Gözün o gözlərdə qaldı". Bu dəfə ruhumuzun paytaxtı Təbrizdə nəfis tərtibatla nəşr olunub; Aydın Kitab Nəşriyyatı tərəfindən... Dr.Hüseyn Şərqidərəcək Soytürk və Tanay Şərqidərəcəkin araçılığı ilə. Lap elə bu günlərdə... 2021-ci ilin tarixə qovuşduğu bir vaxtda. Yenə də hər misra "Can verən o idi, canı yanan mən" ağrısı ötür. "Mən səni sevəndə yaz havasıydı" nisgili yaddaşı oyadır, xəyalı didir. Yenidən başlayır bu ilticalar:

*Təbibsiz, dərmansız sən məni sağalt,*
*Əyləndir xoş üzlə məni bu axşam.*
*Sənə yaxın olum, dünyadan uzaq,*
*Qoy sükut danışsın, ikimiz susaq...*

"Gör necə yerbəyer, necə adbaad!" Yazılan hər misra qəlbə yaxındır. Əbədi sevginin titrəyişləri, ölümsüz eşqin möhürbəndləri...

**Belə oxunub həmişə ustad Nəriman Həsənzadənin şeirləri. Belə yadda qalıb.**

***Sərvaz Hüseynoğlu***

Ədəbiyyat qəzeti.- 11 dekabr.- 2021- ci il.- S. 6.